# AQRAR BÖLMƏYƏ KONSEPTUAL BAXIŞ



İqtisadi böhranın davam etməsinə baxmayaraq, 2016-cı il ölkəmiz üçün uğurlu il olmuşdur. Bu ilin yanvar ayının 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında cənab prezident demişdir: «İqtisadi sahədə 2016-cı ildə önəmli addımlar atılmışdır. 2016-cı il dərin iqtisadi islahatlar ili kimi tarixdə qalacaq. Bu il ərzində qəbul edilmiş qərarlar, qanunlar, mənim tərəfimdən imzalanmış sərəncamlar iqtisadi islahatları daha da dərinləşdirir və bizə imkan verir ki, gələcəkdə qeyri-neft sektorunun hesabına inkişaf edək. Qəbul edilmiş qərarlar artıq öz nəticəsini verməkdədir».

Görülən məqsədyönlü və ardıcıl tədbirlər fonunda aqrar sahədə aparılan islahatlar xüsusi önəm daşıyır və regional inkişafa və tərəqqiyə geniş yol açır. Bunun real nəticəsi kimi ötən il kənd təsərrüfatında 2,6 faiz artıma nail olunmuşdur. Lakin qarşıda duran hədəflər daha böyükdür. Yaxın illərdə Azərbaycanın kənd təsərrüfatı texnoloji əsaslarla yenidən qurulacaq, məhsuldarlıq artacaq və ixrac potensialı bir neçə dəfə yüksələcək.

Cənab prezidentin aqrar bölmədə müəyyən etdiyi strateji xətt bir sıra ənənəvi sahələrin önə çıxarılmasını və dirçəldilməsini diktə edir. Həmin istiqamətlər barədə söhbət açacağıq. Öncə qeyd etmək lazımdır ki, belə sahələrdən biri - uzun illər tənəzzül yaşayan pambıqçılığın dirçəlməsi sahəsində ciddi işlərə başlanılmışdır. 2016-cı ildə əkinin iqlim şəraiti ilə bağlı gecikməsinə rəğmən, yaxşı nəticələr əldə edilmişdir. Əgər 2015-ci ildə cəmi 18 min hektarda pambıq əkilmişdirsə, 2016-cı ildə pambıq əkin sahələri 51 min hektara çatdırılmışdır. 2015-ci ildə 35 min ton məhsul tədarük edilibsə, ötən il təxminən 90 min ton məhsul götürülüb. Bu il pambıq əkini ilə bağlı ciddi irəliləyiş baş verəcək. Belə ki, əkin sahələri genişləndiriləcək 120 min hektara çatdırılacaq. Lakin bu da son hədəf deyil. Vəziyyətlə əlaqədar rəqəmlər dəyişə, daha doğrusu, artırıla bilər. Bunun üçün bütün zəruri tədbirlər görülür, yəni texnika, aqrotexniki avadanlıqlar, gübrələr alınır, yeni torpaq sahələri əkin dövriyyəsinə verilir, suvarma sistemləri yeniləşir. Təkcə bu il icra olunacaq tədbirlər nəticəsində 200 minə yaxın insan daimi və mövsümi işlərə cəlb olunacaq.

Ölkə başçısının vurğuladığı kimi, hazırda Azərbaycanın 27 rayonunda pambıq becərilir və cari ildə ölkə üzrə 200 min tondan artıq pambıq tədarükü nəzərdə tutulur. Dövlətin prioritet hesab etdiyi sahələrdən biri də baramaçılığın inkişaf etdirilməsidir. Pambıqçılıq kimi bu sahə də tamamilə ləğv olunmaq dərəcəsinə gəlib çıxmış, tut bağlarının böyük hissəsi kəsilmişdi. 2015-ci ildən etibarən baramaçılığın inkişafı ilə bağlı müəyyən tədbirlərin görülməsinə başlanıldı. Belə ki, həmin il Şəki rayonunda 200 kiloqramdan bir az çox barama tədarük edildi. 2016-cı ildə həyata keçirilən tədbirlər nəticəsində barama istehsalı 70 tona çatdırıldı. Ölkə başçısının tapşırığına əsasən, 2017-ci ildə barama istehsalı azı iki dəfə artırılacaq. Bu məqsədlə keçən il ölkə üzrə 1 milyon 700 min tut tingi əkilmişdir.

Azərbaycanın bütün bölgələrində baramaçılığa böyük maraq vardır. Çünki baramaçılıq qısa vaxt ərzində yaxşı gəlir gətirən sahədir. Hazırda ölkəmizin 37 rayonunda əhali baramaçılıqla məşğul olur. Hər il bunun coğrafiyası genişləndiriləcək və 2019-cu ildə barama istehsalı 1300 tonu ötüb keçəcək. Bu məqsədlə Şəki İpək Kombinatının tam istehsal gücü ilə işləməsi təmin ediləcək.

Ölkəmizə valyuta gətirən sahələrdən biri də fındıqçılıqdır. Təkcə 2016-cı ildə respublikamızda 13 min hektar sahədə fındıq bağları salınmışdır. Hazırda ölkə üzrə ümumi fındıq bağları 30 min hektarı əhatə edir. Fındıq bağlarının üçdə bir hissəsi 2016-cı ildə salınıb. Qarşıya məqsəd qoyulub ki, üç-dörd il ərzində əlavə 40 min hektar fındıq bağları salınsın. Bununla da fındıq bağlarının həcmi 70 min hektara çatdırılacaq. Bu işləri görmək üçün dövlət öz dəstəyini göstərəcək. Fındıqçılığın coğrafiyası da genişləndiriləcək. Hazırda respublikanın 13 rayonunda bu sahədə zəruri tədbirlər görülür.

Bundan başqa, xurma və nar bağlarından əldə edilən məhsulların ixracı hesabına da respublikaya iri həcmdə valyuta gətirmək olar. Hazırda ölkəmizdə ildə 200 min tondan artıq nar və 240-250 min ton xurma tədarük edilir. Xurma və nar plantasiyalarının genişləndirilməsi istiqamətində işlər gedir. Lakin məhsulun satışı ilə bağlı problemlər yaşanır. Hələlik əsas bazar Rusiya Federasiyasıdır. Burada daşınma və gömrük xərcləri fermerləri qane etmir. Rusiya bazarlarında mövcud olan monopoliya da sahibkarların işinə mane olur. Bu ilahi meyvələrinin Avropa və digər ölkələrə çıxışını təmin edə bilməmişik. Bunun üçün məhsul yüksək standartlara uyğun yetişdirilməli və qablaşdırılmalıdır. Ölkə daxilində məhsulun topdansatış və topdanalış qiymətlərini tənzimləyən birjaların, yarmarkaların yaradılmasına ehtiyac vardır. Əgər sadalanan problemlər həll olunarsa, nar və xurma ixracından böyük həcmdə valyuta qazanmaq olar.

Ölkə başçısı valyuta gətirən məhsullar sırasında badam meyvəsinin Azərbaycanda çox az istehsal olunduğunu dilə gətirmişdir. Hətta badamla öz daxili tələbatımızı ödəyə bilmirik, bu məhsulu digər ölkələrdən idxal edirik. Respublikada cəmi 1000 hektar badam bağları var ki, bu da Naxçıvanda yerləşir. Halbuki, Abşeron yarımadasında, digər rayonlarda badamçılıq üçün münbit şərait vardır. Dövlət başçısı bu sahədə ciddi araşdırmaların aparılmasını və əməli tədbirlərin görülməsini bir vəzifə olaraq qarşıya qoymuşdur.

Böyük gəlir gətirən kənd təsərrüfatı məhsullarından biri də üzümçülükdür. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi keçən əsrin 70-ci illərində 2 milyon ton üzüm istehsal edilirdi. Bunun hesabına kənd əhalisinin böyük hissəsinin məşğulluğu təmin olunmuşdu. 90-cı illərin əvvəllərində məlum səbəblər üzündən üzüm bağları da məhv edildi. Yalnız 2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları çərçivəsində bölgələrdə yeni üzüm bağlarının salınmasına başlanıldı, yeni emal müəssisələri, şərab zavodları yaradıldı. Lakin üzümçülüyü prioritet səviyyəyə qaldırmaq, dünya standartlarına uyğun məhsul istehsal etmək və onların ixracını həyata keçirmək istiqamətində çox işlər görülməlidir. Zeytunçuluqda da hələ daxili tələbatı ödəyə bilmirik. Halbuki, Abşeron yarımadasında, digər bölgələrdə də zeytunçuluğun inkişafı üçün əlverişli iqlim və torpaq şəraiti vardır. Sadəcə olaraq bu sahə unudulub, diqqətdən kənarda qalıb. Dövlət başçısı zeytunçuluğun dirçəldilməsi və inkişafı ilə bağlı müvafiq tapşırıqlarını vermişdir.

Cənab prezidentin prioritet elan etdiyi sahələrdən biri də tütünçülükdür. Keçən il 3500 ton quru tütün tədarük edilib. Qarşıya qoyulan əsas vəzifə ilkin istehsalı 3 dəfə artırmaq, yəni 10 min tona çatdırmaqdır. Bunun üçün təsərrüfat subyektlərinə dövlət dəstəyi göstərilir və bundan sonra da göstəriləcək. Həm də ixrac bazarlarının axtarılıb tapılması istiqamətində də zəruri addımlar atılır.

Ölkəmizdə çayçılığın bərpası və inkişafı istiqamətində də lazımi tədbirlər görülür. Hazırda yüzlərlə hektar çay plantasiyaları salınıb, yeni avadanlıqlar gətirilib, emal müəssisələri yaradılıb. Çayçılıqla məşğul olanlara dövlət hərtərəfli maliyyə və texnoloji yardım göstərir. Çayçılıq cənub bölgəsinin iqtisadiyyatında müstəsna əhəmiyyət kəsb edir. Azərbaycanda çaydan çox istifadə edilir. Ətirli və keyfiyyətli olduğuna görə Azərbaycan çayı xarici ölkələrdə də yaxşı tanınır. Emal müəssisələri xaricdən gətirilən xammal hesabına fəaliyyət göstərir. Ancaq görülən tədbirlər nəticəsində yaxın vaxtlarda emal müəssisələri yerli xammal hesabına məhsul istehsal edə biləcəklər. Belə olan halda ixrac hesabına daha böyük həcmdə valyuta axını təmin ediləcək.

Ölkəmizdə prioritet sahələrdən biri də heyvandarlıqdır. Bundan sonra Azərbaycanda heyvandarlığın ancaq qapalı şəraitdə inkişafı nəzərdə tutulur. Bu həm otlaq ərazilərinin azad olunaraq başqa təyinatlar üzrə istifadə olunmasına, həm də ət və süd istehsalında məhsuldarlığın artırılmasına gətirib çıxaracaq. Azərbaycanda hələ ki, ən çox istehlak olunan kərə yağını xaricdən gətiririk, əhalinin qazancının xeyli hissəsi kərə yağının alınmasına gedir. Halbuki, Azərbaycan kimi bir ölkədə kərə yağı ilə nəinki ölkə əhalisini təmin edə bilərik, hətta ixrac imkanı da qazana bilərik. Son illər bu sahədə ciddi addımlar atılır, müasir tipli heyvandarlıq kompleksləri yaradılır.

Cənab prezident demişdir: «Biz ixracı şaxələndirməliyik və ilk növbədə kənd təsərrüfatı məhsulları hesabına. Biz realist olmalıyıq. Biz indi texnologiya ixrac edə bilmirik, vaxt lazımdır. Biz nəyi ixrac edə biləriksə, diqqətimizi o real sektora yönəltməliyik. Burada kənd təsərrüfatı, emal sahəsi, əlbəttə ki, ən böyük potensiala malikdir. Bu, ölkəmizə daha çox valyuta, kənddə yaşayanlara isə əlavə vəsait gətirəcək...»

O, həmçinin vurğulamışdır ki, bütün işləri görmək üçün mükəmməl infrastruktur olmalıdır və son 12 il ərzində bu sahədə saysız-hesabsız layihələr reallaşıb. Azərbaycanda qazlaşma 92 faiz həll edilib, elektrik enerjisi ilə təminatda problem qalmayıb. Kənd yollarının tikintisi də uğurla aparılır. 2017-ci ildə 40 layihənin həyata keçirilməsi nəzərdə tutulur. Həmin layihələrin gerçəkləşməsi nəticəsində yüzlərlə kəndin, qəsəbənin yol problemi həll olunacaq. Bu həm sahibkarlığın və biznesin inkişafına, həm də turizmin inkişafına təkan verəcək.

Kənd yerlərində yaşayan əhalinin məşğulluğunun təmin edilməsi, həyat səviyyəsinin yaxşılaşdırılması üçün aqrar bölmənin digər sahələrinin inkişafına da diqqət ayrılmalıdır. Buraya dənli və paxlalı bitkilərin istehsalı aiddir. Biz hələ noxud, lobya, mərci, soya, düyü, qarğıdalı və s. kimi məhsulları xaricdən alıb gətiririk. Bir araşdırmaçı jurnalist kimi, qeyd etmək istəyirəm ki, əgər suvarma suyu ilə təminat həll olunarsa, bütün bu problemlərə son qoyulacaq, ölkədə məhsul bolluğu yaradılacaq.

Ölkəmizdə - Böyük Qafqaz dağlarının ətəklərində, yamaclarda farel balığının yetişdirilməsinə böyük imkanlar var. Bu, turizm cəlbediciliyi, ekoturizm baxımından da sərfəlidir. Quşçuluğun, qazçılığın, hind quşunun istehsalı sahəsində də sahibkarlıq subyektlərinin qarşısında böyük vəzifələr durur. Doğrudur, bir sıra rayonlarda, o cümlədən Göygöldə, İsmayıllıda, Şəkidə, Oğuzda göstərilən sahələrlə bağlı müəyyən işlər görülüb. Lakin işlərin miqyasını daha da genişləndirməyə ehtiyac duyulur. İndiki dönəmdə, böhranlı illərdə köklü tədbirlərin görülməsi böhrandan sonrakı illər üçün inkişafa, bolluğa və yüksəlişə yol açacaq.

***Zülfü İLYASOV,***
***bölgə müxbiri***